# Müasirliklə tarixiliyin sintezi - Naxçıvan




**Kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısını siyasi fəaliyyətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirən ölkə başçısının rəhbərliyi altında həyata keçirilən tədbirlər respublikada söz, fikir və məlumat azadlığının təmin olunmasına, mətbuat orqanlarının maneəsiz fəaliyyətinə geniş imkanlar yaratmışdır. Bu diqqətin bariz nümunəsi kimi yaradılan Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondu (KİVDF) dövlətin bu siyasətinin sistemli və ardıcıl şəkildə həyata keçirilməsinə xidmət edir. Fondun fəaliyyət istiqamətlərindən biri də mərkəzi və yerli icra hakimiyyət orqanları ilə qarşılıqlı əməkdaşlığın genişləndirilməsindən ibarətdir. Elə bu ilin oktyabr ayında Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində keçirilən "Mərkəzi və yerli icra hakimiyyət orqanları və kütləvi informasiya vasitələri arasında əməkdaşlığın genişləndirilməsi" mövzusunda regional konfransda da bu məsələlər ətrafında danışılmışdır. Tədbir çərçivəsində konfrans iştirakçıları həmçinin bu qədim diyarın tarixi, gəzməli, görməli yerlərində də olmuşlar...**

Bu gün Naxçıvan tanınmaz dərəcədə gözəlləşib və müasirləşib. Həyatın bütün sahələrində böyük inkişaf və müsbət dəyişikliklər göz oxşayır. Bu dəyişikliyi elə Naxçıvan Beynəlxalq Hava Limanından çıxıb şəhərin lap giriş qapısındaca hiss edirsən. Doğrudan da gündən-günə gözəlləşən, müasirləşən qədim Naxçıvan öz tarixinin heç bir mərhələsində bu cür dinamik inkişafa və tərəqqiyə nail olmamışdır. İllər öncə kiçik, qədim şəhərlə bugünkü Naxçıvanı







müqayisə etdikdə göz önündə başqa bir aləm canlanır...

Hər daşının altında bir tarix yatan bu qədim şəhərin baş meydanında ucalan ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsi bu gün bütün naxçıvanlıların qürur yeridir. Heydər Əliyev Muzeyində isə ulu öndərin zaman- zaman tarixin sərt sınaqlarından mərd-mərdanə çıxmış doğma torpağında yaşadığı, işlədiyi illəri əks etdirən eksponatlara, fotoşəkillərə baxdıqca bu dahi şəxsiyyətin elinə, obasına, xalqına, millətinə bağlılığına, mehribanlığına heyran qalmamaq mümkün deyil.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən şəhərin ən yüksək məkanında Dövlət Bayrağı Meydanı və Muzeyi yerləşir. Meydanın mərkəzində inşa olunmuş bayraq dirəyinin hündürlüyü 57 metrdir. Bu dirəyə sancılan uzunluğu 20, eni isə 10 metr olan üçrəngli bayrağımız hər dəfə dalğalandıqca tarixən basqınlara, işğallara məruz qalmasına baxmayaraq hər zaman yenilməz, alınmaz bir qalaya çevrilən qədim Naxçıvanın vüqarını, əzəmətini daha da artırır. İnsan bu mənzərədən gözlərini bir an belə ayırmadan bu xalqın, bu millətin dünya durduqca var olacağına, tezliklə düşməninə qalib gələcəyinə elə bu dalğalanan müqəddəs bayrağına and içməyi keçirir ürəyindən.

Bayraq dirəyinin pyedestalının altında səkkizguşəli ulduz formasında inşa olunan bayraq Muzeyində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" Qərarın surəti və həmin tarixi əks etdirən fotoşəkillər nümayiş olunur. Tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, qədim pul nişanlarının fotoşəkilləri muzeyin ekspozisiyasında yerləşdirilmişdir.

Naxçıvan memarlıq məktəbi öz dövrünün ən yüksək sənət nümunələri olmaqla Azərbaycan mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Culfa rayonunda yerləşən Naxçıvan - Marağa memarlıq məktəbinin ən gözəl nümunələrindən olan, Azərbaycanın tarixi memarlıq rəmzi sayılan, "Kitabi-Dədə Qorqud" dastanında möhkəm və etibarlı bir istehkam kimi təsvir olunan, vaxtilə Eldəgizlərin iqamətgahı olan, dövrünün ən böyük cahangiri Əmir Teymuru belə möhkəmliyi ilə heyrətləndirən möhtəşəm "Əlincə Qalası" sözün əsl mənasında insana məğrurluq, yenilməzlik hissi aşılayır. Qala Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il fevralın 11-də imzaladığı Sərəncama əsasən bərpa olunmuş və bərpa işləri zamanı Əlincə dağının ətəyində müvafiq yer seçilərək "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi üçün bina tikilmişdir. Xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyan qalanın bərpası zamanı tarixiliyi qorunub saxlanmışdır.

Sivilizasiyanın ilk beşiklərindən olan Naxçıvan qədim, tarixi abidələrlə zəngindir. Naxçıvan memarlıq məktəbinin nümunələrini özündə əks etdirən bu saysız-hesabsız abidələr muxtar respublikanın tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının, eyni zamanda xalqın minilliklər boyu həyat tərzinin ifadəsidir. Bu memarlıq məktəbinin daş sənət incisi olan, tamamilə qırmızı turfdan ucaldılmış "Gülüstan" türbəsi də dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindəndir. Öz zərifliyi, incə memarlıq üslubu ilə gələcəkdə də dəyərini itirməməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2015-ci il 7 oktyabr tarixli sərəncamına əsasən "Gülüstan türbəsi" də bərpa olunmuş və abidənin yerləşdiyi ərazinin tarixi və mədəni əhəmiyyəti nəzərə alınaraq burada "Gülüstan" Tarix-Memarlıq Qoruğu yaradılmışdır.

Tariximizin daş yaddaşı olan bu abidələrə baxdıqca "nə qədər qədim tarixi var bu xalqın?" deyə düşünürsən. Bu tarixi öyrənməli, onun hər cığırını, izini qarış-qarış gəzməli, daşını, torpağını tanımalısan ki, qoruyub saxlaya da biləsən.

Şəhərin mərkəzində yüksələn Naxçıvan memarlıq məktəbinin yaradıcısı olan Əcəmi Əbubəkr oğlu Naxçıvaninin şah əsəri sayılan Mömünə xatun türbəsi haqqındakı tarixi mənbədə deyilir: "1186-cı ilin güllü-çiçəkli bir yaz günü. Novruz bayramını yenicə yola salmış Naxçıvan əhalisi yenə də bayram şadlığı ilə baş şəhər meydanında toplaşmışdılar. Bu gün Atabəylər soyunun ən canlı qadını Mömünə xatunun xatirəsinə ucaldılan türbənin tikintisi başa çatmışdı...Atabəy yenidən türbəyə baxdı. Geniş açılmış gözləri göy çadır günbəzdə, oynaq tağlarda, xalça süslü divarlarda, çarpaşıq kitabələrdə dolanıb lap yuxarıdakı yazı qurşağını tamamlayan iki misralıq şeir üzərində dayandı:

*Biz gedirik, ancaq qalır ruzigar,*
*Biz ölürük, əsər qalır yadigar."*

Bəli, tarixin bizə yadigarıdır Mömünə xatun türbəsi. Həm də bu torpağın qüruru, məğrurluq rəmzi. Bu möhtəşəmliyi yaradan xalq nələrə qadir deyil ki?..

Naxçıvan şəhərindən təqribən 12 kilometr aralı, Culfa rayonu ərazisində, İlandağ və Nəhəcir dağı arasında yerləşən Əshabi-Kəhf təkcə naxçıvanlıların ziyarətgahı deyil, bütün Azərbaycanda tanınmış dini turizm obyektidir. İnsanların əsrlər boyu inanc yeri, ümid yeri olan bu ziyarətgaha hər gün yüzlərlə insan gəlir, Uca Yaradanın möcüzəsi sayılan bu ocağı ziyarət edirlər. Son illərdə Əshabi-Kəhfdə iki dəfə abadlıq işləri aparılmış, 13 kilometr məsafədə rahat yol salınmış, məscid tikilmiş, kitabə qoyulmuşdu. 2007-ci ildə aparılan quruculuq işləri daha da genişləndirilərək ziyarətgahdakı köşklər memarlıq baxımından fərqlənən tikililərlə əvəz edilmişdir. Ziyarətgahın ərazisində "Qonaq evi" və "Bələdçi otağı" fəaliyyət göstərir. Azərbaycanın bölgələrindən və müxtəlif müsəlman ölkələrindən bu dini ocağa gələn zəvvarların sayı ilbəil artır. Ziyarətgah tarixi abidə kimi də çox böyük əhəmiyyət kəsb edir. Əshabi-Kəhf Dini Mədəni Abidə Kompleksində ilk dəfə ümummilli lider Heydər Əliyevin tapşırığı ilə 1998-ci ildə abadlıq bərpa işləri aparılmışdı. Bu il də muxtar respublikada tarixi mədəni irsimizin qorunub saxlanılması istiqamətində tədbirlər davam etdirilmiş, ziyarətgahda təmir-bərpa işləri aparılmışdır. Muxtar respublikada ziyarətgahların, dini-mədəni abidələrin bərpasının diqqət mərkəzində saxlanılması Naxçıvan şəhərinin 2018-ci ildə İslam Mədəniyyətinin paytaxtı elan edilməsi ilə bağlı görülən işlərin nəticəsidir.

Bu gün Naxçıvan yeniləşir, yenidən qurulur, gözəl binalar tikilir, xiyabanlar salınır. Respublikanın bütün sahələrində hər addımbaşı nəzərəçarpan yeniliklər Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində də aparılmışdır. Belə ki, vaxtilə cəmi 2-3 saat yayımlanan Naxçıvan televiziyası bu gün efirdə 17 saat yayımlanır. Naxçıvan Dövlət Teleradiosunun ən müasir rəqəmsal bazaya malik olması verilişlərin keyfiyyətini yaxşılaşdırmaqla yanaşı, həm də muxtar respublikada rəqəmsal yayıma keçidi də təmin edir. Sözsüz ki, hər bir ölkə, respublika həm də özünün mətbu orqanı ilə tanınır. Daha dəqiq desək hər bir mətbu orqanı öz yerinin, ölkəsinin carçısı, təmsilçisidir. "Şərq qapısı"qəzeti də bu gün "Şərqin qapısı"nı təmsil edir. Qəzetin redaksiyası və "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi 2010-cu ildən yeni binada fəaliyyət göstərir. Mətbəədə quraşdırılan müasir avadanlıqlar hesabına artıq muxtar respublikada çap olunan qəzet və jurnallar rəngli, yüksək poliqrafik keyfiyyətlə nəşr olunur.

Naxçıvan Xalça Muzeyi, Duzdağ Fizioterapiya Mərkəzi, Naxçıvan Biznes Mərkəzi, Naxçıvan Dövlət Universitetinin Media Mərkəzində də aparılan yenidənqurma işləri bu qədim şəhərin hüsnünü bəzəyərək müasirliklə tarixiliyin sintezində qovuşdurur Naxçıvanı.

**"Respublika"**